2020.- 16 yanvar.- S. 5.

facebook Ses Media Holding səs

# Azərbaycanlı tenor erməni sopranonu səhnədən qovdurdu

## Yusif Eyvazov Ruzan Mantaşyanla çıxış etmək istəmədiyini bildirib və tələb irəli sürüb

***Ermənilər bu dəfə beynəlxalq səviyyədə çətin duruma düşüblər. Belə ki, gələn ay baş tutacaq Drezden Opera Balında rüsvay olan ermənilər baş verən bir hadisədən sonra ciddi təlaş keçirib və narahat olmağa başlayıblar. Buna səbəb isə, azərbaycanlı opera müğənnisinin erməni müğənni ilə eyni səhnədə çıxış etməkdən imtina etməsidir.***

"Müğənnilər, nəinki Avropanın, eləcə də, digər ölkələrin siyasət, artist və biznes-elitasının toplaşdığı məşhur Drezden Opera Balının açılışında iştirak etməli idilər. Nəticədə, erməni müğənnidən opera balı səhnəsini tərk etmək xahiş olunub". Bu barədə "Sputnik-Armeniya" saytı dünyaca məşhur opera müğənnisi Anna Netrebkonun azərbaycanlı əri Yusif Eyvazovun erməni sopranosu Ruzan Mantaşyanla eyni səhnədə çıxış etməkdən imtinası ilə bağlı olayı ictimailəşdirərkən yazıb. Erməni saytı informasiyanı "Forumopera.com" saytından götürüb.

### Byüri: "Tenor qalib gəldi və sopranodan getməyi xahiş etdilər"

"İnandırıcı görünməsə də, bu, faktdır! Eyvazov siyasi səbəblərə görə, Ruzan Mataşyanla eyni səhnəni bölüşməyi rədd edib" deyə olayı "Forumopera" saytında yazan Loran Byüri qeyd edib. "Artistlər fevralın 7-də Drezden Opera Balı çərçivəsində bir yerdə çıxış etməli idilər. Lakin nə baş verdi, nəticədə, iki müğənnidən hansından xahiş olunub?" deyə Byüri sual edib: "Tenor qalib gəldi və sopranodan getməyi xahiş etdilər".

Məhz bundan sonra ermənilər dərhal həmin hadisəni şişirdərək, azərbaycanlı opera tenoruna qarşı kampaniyaya başlayıblar, onun tələbini siyasiləşdirməyə cəhdlər göstəriblər. Halbuki Yusif Eyvazov xalqına və millətinə qarşı işğalçılıq mövqeyi sərgiləyən bir ölkənin müğənnisi ilə eyni səhnəni, haqlı olaraq, bölüşmək istəmədiyini bildirib və haqlı olduğunu sübuta yetirib.




Nəticədə, hay-küy salan daha bir erməni müəğnnisi Asmik Papyan özünün "feysbuk" səhifəsində yazıb: "Haraya qədər yuvarlanmışıq. Mən dəfələrlə həmin səhnədə çıxış etmişəm, heç vaxt bənzər halın şahidi olmamışam".

Hətta Papyan insidentlə bağlı şikayət edəcəyini də bildirib.

### Ermənistanın işğalçılıq siyasəti onları beynəlxalq miqyaslı tədbirlərdə xar edir!

Görünən isə budur ki, ermənilər tanınmış azərbaycanlı opera tenor müğənnisi Yusif Eyvazovun beynəlxalq müstəvidəki bu addımından təlaş keçirməyə başlayıblar və onun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində təcavüzkar ölkələrinin işğalçılıq siyasətlərinin mədəniyyətə də zərbə vurması faktlarını, habelə, işğal edilmiş ərazilərimizdə tarixi-mədəni abidələrimizin dağıdılması və məhv edilməsi faktlarının növbəti dəfə də ortaya çıxacağından ehtiyat ediblər. Ona görə də, bu cür haraycılıq salıb, həqiqətləri gizlətməyə cəhdlər göstərirlər.

Qeyd edək ki, Drezden Opera Balı ilk dəfə 1925-ci ildə baş tutub və İkinci Dünya müharibəsi başlanana - 1939-cu ilə qədər səkkiz dəfə keçirilib. 2006-cı ildə isə bal Drezdenin əsasının qoyulmasının 800-cü ildönümündə yenidən bərpa olunub və hazırkı vaxta qədər hər il keçirilir. Böyük qış mərasiminin iştirakçıları Saksoniya paytaxtının10 minlərlə sakinləri və qonaqları olur.

***Rövşən RƏSULOV***